**Respublika**. - 2024.- 30 noyabr. - № 264. - S. 1,5.

# COP29: Məğrur və qürurlu xalqın növbəti uğuru

## Ölkəmiz iki həftə ərzində dünyanın qlobal mərkəzinə çevrildi

**Mustafa Kamal**

**"Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib".**

Bu fikirləri Prezident İlham Əliyev Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində deyib.

Dövlət başçısının hər bir çıxışı mühüm çağırışlarla zəngindir. Qlobal problemlərin həllində beynəlxalq həmrəyliyin daha da gücləndirilməsi, səylərin birləşdirilməsi əsas məsələ kimi qarşıya qoyulur.

Dünyanı Bakıya toplayan COP29 Azərbaycanın iqlim dəyişmələrinin yaratdığı problemlərin həllinə verdiyi töhfələrə, eyni zamanda bu sahədə təcrübəsinə işıq salır, yeni əməkdaşlıq formatlarının, körpülərin yaradılması fonunda qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmağın mümkünlüyünü açıqlayır. COP29-un Liderlər Sammitindəki çıxışlarda bir daha bu çağırış səsləndirildi ki, indiki və gələcək nəsillərə daha sağlam bir planet miras qoymalıyıq.

Dövlət başçısı bildirib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkə qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bu gün Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan bütün dünyada qalib dövlət, xalqımız isə məğrur xalq kimi tanınır. Prezident İlham Əliyev Azərbaycanı etibarlı tərəfdaş, regionda və dünyada müstəqil xarici siyasət yürüdən bir aktor kimi tanıtdı. Ölkəmiz beynəlxalq əlaqələrini gücləndirdi. Elə bunun məntiqi nəticəsi idi ki, 44 günlük Vətən müharibəsi dövründə ölkə başçımız bütün siyasi təzyiqlərə və təhdidlərə sinə gərməyi bacardı. Prezident İlham Əliyev prinsipiallıq, yenilməz iradə nümayiş etdirərək Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə etdi. Məqsədyönlü ardıcıl siyasət aparılması nəticəsində tarixi Qələbə qazandıq. Bu, xalqımızın heç vaxt unudulmayacaq qələbəsidir. Bu, haqqın ədalətin zəfəridir. Bu, Prezidentlə xalqın, ordunun birliyinin təntənəsidir. Azərbaycan xalqı bu zəfərlə, qələbə ilə fəxr edir. Qələbəmiz bir daha Azərbaycanın "dəmir yumruğ"unun qarşısında heç bir gücün, silahın, sursatın dayana bilməyəcəyini göstərdi. Bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı qalib və qürurlu xalq kimi tanınır. Dünya mətbuatı və xalqları Azərbaycanı XXI əsrin müharibəsini qələbə ilə yekunlaşdıran xalq kimi tanıyır. Bütün bunlar ölkəmizin mövqeyini daha da möhkəmləndirir, reytinqini yüksəldir.

Ölkəmiz Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində günbəgün inkişaf edir. Bir il əvvəl BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq suverenliyimizi tam bərpa etdik. Həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolu xarici siyasətinin əsas tərkib hissəsi olan ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin inkişafında, ev sahibliyi etdiyi tədbirlərin davamlılığında özünün aydın ifadəsini tapır. Azərbaycan təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Azərbaycan çoxtərəflilikdə, eyni zamanda mədəniyyətlərarası dialoqda fəal rol oynayır. Bütün bunlar Azərbaycanın iqlim dəyişmələri məsələsində xalqlar arasında körpülərin salınmasında faydalı ola biləcəyinə əsas verir. BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə Azərbaycan iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edir. Multikulturalizm dövlət siyasəti və həyat tərzidir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

COP29 bir daha bu uğurlarımızı dünyaya təqdim etdi. Azərbaycan hər bir dövrün çağırışlarını yüksək səviyyədə yerinə yetirməklə beynəlxalq münasibətlər sistemində rolunu daha da artırır. Hazırkı dövrün əsas çağırışlarından biri bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılmasıdır. Ölkəmiz bu sahədə böyük potensiala malikdir. Yeni həmrəylik və əməkdaşlıq formatlarının yaradılması ilə bağlı çağırışları atdığı addımlar ilə təsdiqləyir. Azərbaycanın bərpaolunan enerjidə texniki potensialı qonaqların diqqətinə çatdırıldı. Ölkəmizin quruda 135 giqavat və dənizdə isə 157 giqavat bərpaolunan enerji ehtiyatlarının olduğu bildirildi. Bu istiqamətdə ötən il BƏƏ-nin "Masdar" şirkəti tərəfindən inşa edilən 230 meqavatlıq Günəş enerji stansiyası fəaliyyətə başlayıb. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. Həmçinin COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcək. Həmçinin "yaşıl enerji"nin ixrac bazarlarına da diqqət yetirilir. Bu məqsədlə Xəzər dənizindən başlayaraq, Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün ölkəmizin tərəfdaşları ilə fəal iş aparılır. Beləliklə, Azərbaycan Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı əldə edəcək. Bununla bağlı Azərbaycanın hədəfləri böyükdür və Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları "yaşıl enerji" zonaları elan edilib.

Azərbaycan növbəti dəfə dünyanın diqqətini özünə yönəltdi. COP29-a ölkəmizin yüksək səviyyədə ev sahibliyi dünya mətbuatında da müzakirə olunan əsas mövzulardan biri idi. Bu tədbir Azərbaycanın beynəlxalq nüfuzunun təqdimatında əhəmiyyətli rol oynadı. Cənab İlham Əliyev sosial şəbəkə hesablarında COP29-un nəticələri ilə bağlı paylaşımında bu tədbiri iqlim diplomatiyasında dönüş nöqtəsi kimi dəyərləndirdi. Reallıq budur ki, Azərbaycan beynəlxalq aləmdə iqtisadi, siyasi, humanitar, diplomatik mərkəz kimi tanınır və nüfuz qazanır. Ölkəmizin sabitləşdirici və birləşdirici aktora çevrilməsi beynəlxalq tədbirlərə ev sahibliyində öz sözünü deyir.

Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin coğrafiyasına diqqət yetirmək kifayətdir. Regional çərçivədə qurulan əməkdaşlıq sonrakı illərdə beynəlxalq miqyas aldı və ölkəmiz daim əməkdaşlığa, birliyə, həmrəyliyə çağırışları ilə diqqətdədir. Qlobal problemlərin həllində birgə səylərin göstərilməsinə edilən çağırışlar bütün dövrlərdə öz aktuallığını qoruyur. Ölkəmizin dünyanın enerji təhlükəsizliyinin təmin edilməsinə, iqlim dəyişmələrinin yaratdığı problemlərin həllinə verdiyi töhfələr göz qabağındadır. COP29 iqlim dəyişmələrinə qarşı mübarizədə xüsusi yer tutdu.

Tədbirdə əldə olunan nəticələr Azərbaycanın hər bir məsələdə mövqeyinin xüsusi əhəmiyyət kəsb etdiyini təsdiqlədi. Bakı nailiyyəti dünyaya mühüm çağırışları etdi. Cənab İlham Əliyevin sözügedən paylaşımında qeyd etdiyi kimi, Bakı nailiyyəti çoxtərəfliliyin təntənəsidir. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Prezident İlham Əliyev COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına sahib ölkə kimi bu gün qlobal miqyasda alternativ enerji mənbələrinin yaradılması, təşviq edilməsi istiqamətində qarşıya qoymuş olduğu məqsədləri diqqətə çatdırdı. Ekoloji mühitin yaxşılaşdırılması, qlobal təhdidlərə qarşı Azərbaycanın ortaya qoymuş olduğu mövqenin bu gün bütün dünya dövlətləri tərəfindən təqdir edildiyi qeyd olundu.

Bir sözlə, COP29-un mahiyyəti ölkəmizə qazandırdığı növbəti dividendləri özündə ehtiva edir. Bu gün ölkəmiz qalib, bütövləşən, yeni dövrün reallıqlarını yaşayan məğrur və qürurlu xalq olaraq son dərəcə möhtəşəm beynəlxalq tədbirə ev sahibliyi etdi. Ölkəmizi iki həftə ərzində dünyanın qlobal mərkəzinə çevirdi. Azərbaycanın bu günə qədər keçdiyi yolu təqdim etdi, eyni zamanda tədbirdən sonrakı dövrün reallıqları barədə aydın təsəvvür yaratdı. Dünya ictimaiyyətinin dərin hörmətini qazanan Azərbaycan yeni körpülərlə bu rolunu daha da möhkəmləndirdi.